*Filologiya və pedaqogika: elmi araşdırmalar. 2025, c.2, № 4*
*Philology and pedagogy: scientific studies. 2025, v.2, № 4*

*https://doi.org/10.30546/114578.2025.9.1005*

# XIX ƏSR MAARİFÇİLİK HƏRƏKATI VƏ "ƏKİNÇİ" QƏZETİ

**Arzu İbrahimova**
*müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0009-0002-3539-732X*
*arzu.ibrahimova@gmail.com*

**Xülasə**

"Əkinçi" qəzeti (1875-1877) Azərbaycan milli mətbuatının ilk nümunəsi olmaqla yanaşı, maarifçilik ideyalarının geniş yayılmasına xidmət etmişdir. Qəzetin səhifələrində təhsil, elm, kənd təsərrüfatı, qadınların maarifləndirilməsi, milli kimlik və dil məsələləri müzakirə olunmuş, xalqın tərəqqisinə xidmət edən çağırışlar səsləndirilmişdir. Araşdırma göstərir ki, "Əkinçi" qəzeti qısa müddət fəaliyyət göstərsə də, Azərbaycan ziyalı hərəkatının formalaşmasına, milli şüurun yüksəlişinə və maarifçilik ideyalarının sistemləşməsinə əhəmiyyətli təsir göstərmişdir. Bu baxımdan, Həsən bəy Zərdabi və "Əkinçi" qəzeti Azərbaycan maarifçiliyinin başlanğıcı kimi milli mətbuat tariximizdə silinməz iz qoymuşdur.

**Açar sözlər:** "Əkinçi" qəzeti, maarifçilik, Azərbaycan mətbuatı, XIX əsr, milli oyanış, ziyalı hərəkatı.

# THE 19TH CENTURY ENLIGHTENMENT MOVEMENT AND THE "EKINCHI" NEWSPAPER

**Arzu Ibrahimova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The newspaper "Ekinchi" (1875-1877) was the first example of the Azerbaijani national press and served to widely disseminate Enlightenment ideas. The newspaper's pages discussed issues of education, science, agriculture, women's education, national identity and language, and voiced calls serving the progress of the people. The research shows that although the "Ekinchi" newspaper operated for a short period of time, it had a significant impact on the formation of the Azerbaijani intellectual movement, the rise of national consciousness and the systematization of the ideas of enlightenment. In this

regard, Hasan bey Zardabi and the "Ekinchi" newspaper left an indelible mark on our national press history as the beginning of Azerbaijani enlightenment.

**Key words:** "Ekinchi" newspaper, enlightenment, Azerbaijani press, 19th century, national awakening, intellectual movement.

## ПРОСВЕТИТЕЛЬСКОЕ ДВИЖЕНИЕ XIX ВЕКА И ГАЗЕТА «ЭКИНЧИ»

**Арзу Ибрагимова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В статье рассматривается формирование идей просвещения в азербайджанском обществе во второй половине XIX века и деятельность Гасан бека Зардаби в этом процессе. Газета «Экинчи» (1875-1877) была первым образцом азербайджанской национальной прессы и служила широкому распространению идей просвещения. На страницах газеты обсуждались вопросы образования, науки, сельского хозяйства, женского образования, национального самосознания и языка, звучали призывы служить прогрессу народа. Исследование показывает, что, хотя газета «Экинчи» существовала недолго, она оказала значительное влияние на формирование азербайджанского интеллектуального движения, рост национального самосознания и систематизацию идей просветительства. В этом отношении Гасан бек Зардаби и газета «Экинчи» оставили неизгладимый след в истории нашей национальной прессы, положив начало азербайджанскому просветительству.

**Ключевые слова**: газета «Экинчи», просвещение, азербайджанская пресса, XIX век, национальное пробуждение, интеллектуальное движение.

### Giriş/İntroduction

XIX əsrin ikinci yarısı Azərbaycan ictimai-siyasi və mədəni həyatında yeni bir mərhələ kimi səciyyələnir. Bu dövrdə maarifçilik ideyalarının yayılması xalqın milli oyanışına, elm və mədəniyyətə marağın artmasına gətirib çıxarmışdır. Maarifçilik hərəkatının əsas təbliğatçılarından biri isə Həsən bəy Zərdabi olmuşdur. Onun redaktorluğu ilə nəşr olunan "Əkinçi" qəzeti (1875-1877) Azərbaycan mətbuat tarixində ilk qəzet olmaqla yanaşı, həm də maarifçi ideyaların yayılmasında mühüm vasitəyə çevrilmişdir. Tədqiqatçılar haqlı olaraq

qeyd edirlər ki, *"Əkinçi" qəzeti yalnız mətbu orqan deyil, həm də "xalqı maarifləndirməyə, milli şüuru oyatmağa xidmət edən bir məktəb idi"* [Əlizadə, 2004:73].

XIX əsrin ikinci yarısında Azərbaycan cəmiyyəti sosial-iqtisadi gerilik və savadsızlıq kimi problemlərlə üz-üzə idi. Əhalinin böyük hissəsi kənd təsərrüfatı ilə məşğul olur, lakin müasir elmi biliklərdən xəbərsiz idi. Zərdabiyə görə, "*xalqın tərəqqisi ancaq elm və maariflə mümkündür"* [Zərdabi, 1986:41].

Bu düşüncədən çıxış edən Həsən bəy 1875-ci ildə "Əkinçi" qəzetini təsis etdi. Qəzetin adı da simvolik xarakter daşıyırdı: bir tərəfdən kənd təsərrüfatı ilə məşğul olan kəndliləri, digər tərəfdən isə maarif toxumu səpən ziyalıları ifadə edirdi.

Qəzetin əsas məqsədi xalq arasında maarifçilik ideyalarını yaymaq, elm və təhsilin əhəmiyyətini təbliğ etmək, kənd təsərrüfatında yeni biliklərdən istifadəni təşviq etmək, milli özünüdərk prosesinə xidmət etməkdən ibarət olmuşdur.

**"Əkinçi" qəzetinin məramı.** "Əkinçi" qəzetində qaldırılan aşağıdakı məsələləri belə təhlil etmək olar:

a) *Təhsil və maarifçilik.* "Əkinçi" qəzetində xalqın savadlanması əsas mövzulardan biri idi. Zərdabiyə görə, *"xalqın qurtuluşu məktəblərdədir, məktəbsiz millət bir gözü bağlı insana bənzəyir"* [Zərdabi, 1986:95]. Qəzet qızların təhsilini dəstəkləyir, ana dilində dərsliklərin hazırlanmasının vacibliyini vurğulayırdı.

b) *Kənd təsərrüfatı və iqtisadiyyat.* Qəzet kənd təsərrüfatının inkişafı ilə bağlı maarifləndirici məqalələr dərc edirdi. Burada torpaqdan səmərəli istifadə, məhsuldarlığın artırılması, yeni əkinçilik üsullarının tətbiqi haqqında tövsiyələr verilirdi. Bu yanaşma maarifçiliyin praktik xarakterini göstərirdi.

c) *Əxlaq və mədəniyyət.* Qəzetin səhifələrində əxlaqi dəyərlər, milli adət-ənənələrin qorunması məsələləri qaldırılırdı. Zərdabi hesab edirdi ki, *"xalqın tərəqqisi təkcə elmi biliklərlə deyil, həm də əxlaq normalarının yüksəldilməsi ilə mümkündür"* [Süleymanov, 1998:112].

ç) *Qadınların maarifləndirilməsi.* "Əkinçi"nin diqqət çəkən məqamlarından biri qadın azadlığı mövzusu idi. Zərdabiyə görə, "savadlı ana savadlı övlad yetişdirər". Bu fikir onun qadınların təhsilə cəlb edilməsinə verdiyi dəyəri əks etdirirdi.

d) *Milli dil və kimlik məsələləri.* Qəzetin ən mühüm xüsusiyyətlərindən biri xalq dilində yazılması idi. Bu, Azərbaycan ədəbi dilinin formalaşmasına mühüm təsir göstərdi. Tədqiqatçılar qeyd edirlər ki, *"Əkinçi" milli mətbuatla xalq arasında körpü rolunu oynadı*" [Məmmədov, 2012:48].

"Əkinçi" qəzeti fəaliyyət göstərdiyi cəmi iki il – 1875-1877-ci illər ərzində Azərbaycan maarifçiliyinə əvəzsiz töhfə vermişdir. "*Qəzet yalnız xalq arasında savadın və maarifçilik ideyalarının yayılmasına xidmət etməmiş, həm də milli mətbuatın formalaşması üçün əsas təməl rolunu oynamışdır"* [Əlizadə, 2004:73]. Onun yaratdığı bu təcrübə sonrakı dövrdə "Ziya" (1879), "Kəşkül" (1880-1884) və "Kaspi" (80-90-cı illər) kimi qəzet və jurnalların yaranmasına zəmin yaratmışdır [Məmmədov, 2012:48]. XX əsrin əvvəllərində C.Məmməd-quluzadə, M.Şahtaxtinski, S.Hüseyn, Ö.Faiq Nemanzadə,Ü.Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. Bu gərgin mübarizə öz nəticəsini verdi. "Şərqi-Rus" (1903),"Həyat" (1905),"Açıq söz" (1915),"Azərbaycan"(1918) kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxdı. Tədqiqatçılar vurğulayırlar ki, *"Əkinçi" milli mətbuatın yalnız texniki baxımdan ilkin nümunəsi olmaqla kifayətlənməyib, həm də xalqın düşüncə tərzinin dəyişməsinə, milli şüurun yüksəlməsinə və ziyalı hərəkatının formalaşmasına təsir göstərmişdir"* [Süleymanov, 1998:112].

**"Əkinçi"nin maarifçilik missiyası.** Bundan əlavə, qəzetin fəaliyyəti Azərbaycan ziyalılarının maarifçilik prinsiplərinə söykənən tənqidi düşüncə qabiliyyətinin inkişafına şərait yaratmışdır. *"Əkinçi" öz mövqeyi və məzmunu ilə göstərdi ki, mətbuat yalnız informasiyanın çatdırılması vasitəsi deyil, həm də ictimai maarifçilik və milli tərəqqi üçün strateji resursdur"* [Əliyev, 1966:152]. Beləliklə, "Əkinçi"nin qısamüddətli fəaliyyəti Azərbaycan mətbuatının və maarifçilik ideyalarının davamlı inkişafında həlledici rol oynamışdır.

Azərbaycan ziyalıları H.Zərdabini xalqın mənəvi atası adlandırmışlar. Bu mənada, görkəmli tənqidçi və ictimai xadim Firudin bəy Köçərli Yusif Vəzir Çəmənzəminliyə ünvanladığı bir məktubunda Həsən bəy Zərdabinin əməli fəaliyyətinə böyük önəm verərək yazırdı: "*Əkinçi"nin gözəl sözləri və nəfli məlumatı indi də öz əhəmiyyətini itirməmişdir. ...Onlar müəyyən bir sistem halına salınıb Azərbaycan dilində nəşr edilən dövri jurnallarda çap olunarsa, çox faydalı olar". Bu kimi söz ifadələrə biz də qoşuluruq, çünki həqiqətən də "Əkinçi"nin gözəl sözləri və nəfli məlumatı indi də öz əhəmiyyətini itirməmişdir. "Əkinçi" bir vaizdir, "Əkinçi" bir nəfsi-ləvvamə ki, bizi yamanlıqdan məlamət edir, "Əkinçi" bir aynadır, "Əkinçi" bir təbibdir".*

Firudin bəy Köçərlinin bu arzusu gözündə qalmamışdır. "Əkinçi" kitabı ilk dəfə 1979-cu ildə "Azərnəşr" mətbəəsində çap olunmuş, ikinci dəfə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə latın qrafikasında çap olunaraq ("Avrasiya Press", 2005) oxucuların ixtiyarına verilmişdir.

Maarifçilik ideyalarının sistemli şəkildə təbliği Azərbaycan ziyalılarının formalaşmasına mühüm təsir göstərdi. Bu qəzet milli şüurun oyanışında, xalqın öz dilinə, mədəniyyətinə sahib çıxmasında əvəzsiz rol oynadı. Zərdabinin fəaliyyətini yüksək qiymətləndirən F.Əliyev yazırdı: "*Əkinçi xalqı elmə, tərəqqiyə çağırmaqla milli mətbuatın gələcək inkişafı üçün möhkəm bünövrə qoydu*" [Əliyev, 1966:152].

**Nəticə/Conclusion**

Həsən bəy Zərdabinin "Əkinçi" qəzetindəki maarifçi görüş və baxışlarını aşağıdakı kimi nəticələndirmək olar:

1. Böyük ictimai xadim, maarifçi, mütəfəkkir şəxsiyyət Həsən bəy Məlikov Zərdabi "maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur" deyərək cəhalətin, nadanlığın hökm sürdüyü bir dövrdə maarif məşəlini yandıranlardan biri olmuş və ömrünün sonunadək bu məşəli şərəflə və əzmlə daşımışdır;

2. Əkinçi" qəzeti tərbiyənin mahiyyətindən danışarkən ən əsası şəxsiyyət tərbiyə etmək məsələsini ön plana daşımış və onu yüksək dəyərləndirmişdir;

3. "Maarifdən, elmdən məhrum olan bir xalq işıqdan məhrumdur" deyən Həsən bəy Zərdabi maarif və müasirləşmə yolu ilə şüurları dəyişdirməyə, xalq kütlələrini mənəvi əsarətdən qurtarmağa qəlbən inanmış, dini mövhumata, yalançı axund və mollalara qarşı amansız mübarizə aparmışdır;

4. İnsanın sağlamlığını böyük nemət sayan Həsən bəy Zərdabi əxlaq tərbiyəsini fiziki tərbiyə ilə əlaqələndirərək müsbət əxlaqi sifətlərin tərbiyəsində "cisim tərbiyəsinə" müstəsna əhəmiyyət vermişdir;

5. Xalqın mənəvi atası sayılan Həsən bəy Zərdabi uşaqlara ilk yaşlardan verilən tərbiyəni, ailə tərbiyəsini zəruri saymış, valideynlərə övladlarına düzgün tərbiyə verməyi zəruri bilmişdir;

6. Övladı valideyn üçün ən qiymətli bir nemət hesab edən Həsən bəy Zərdabi Əkinçi" qəzetində valideynlərdən uşağa müstəqil düşünmək, təbiət və cəmiyyət hadisələrinə tənqidi yanaşmaq bacarığı, düzlük, doğruçuluq, əməksevərlik, dostluq və yoldaşlıq kimi nəcib keyfiyyətləri tərbiyə etməyi tələb etmişdir.

7. "Əkinçi" qəzetində tərbiyə, maarif, məktəb, müəllim, ünas, ailə və s. haqqında irəli sürülən fikirlər bu gün də çağdaş dövrümüzə cavab verir və öz dəyərli qiymətini saxlayır.

Qəzetin fəaliyyəti göstərdi ki, maarifçilik ideyalarının ictimai şüura təsirində mətbuat əsas vasitələrdən biridir. "Əkinçi" qısa müddət yaşasa da,

Azərbaycan maarifçiliyinin tarixində silinməz iz qoymuş, milli mətbuatın gələcək inkişafı üçün möhkəm təməl yaratmışdır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Zərdabi, H. (1960). Seçilmiş əsərləri. – Bakı: "Yazıçı". – 474 s.
2. Əliyev, F. (1966). Azərbaycan mətbuat tarixi. – Bakı: "Maarif". – 152 s.
3. Məmmədov, M. (2012). Maarifçilik və mətbuat tariximizdə "Əkinçi" qəzeti. – Bakı: "Elm və Təhsil". – 170 s.
4. Əlizadə, Ə. (2004). Azərbaycan maarifçiliyinin tarixi. – Bakı: "Çaşıoğlu". – 130 s.
5. Süleymanov, M. (1998). Zərdabi və "Əkinçi". – Bakı: "Nurlan". − 272 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* 22.08.2025
*Düzəlişə göndərilib* 27.08.2025
*Qəbul edilib* 09.09.2025
*Nəşrə tövsiyə edib* *Mirvari İsmayılova*
*filologiya elmləri doktoru, professor*